# LafargeHolcim Azərbaycan

Ölkə:
Azərbaycan

Layihə No:
48619

Biznes sektoru:
İstehsal və Xidmətlər

Bildiriş növü:
Gizli

Ətraf mühit üzrə kateqoriya:
B

İdarə heyəti tərəfindən baxılmasının nəzərdə tutulan tarixi:
7 sentyabr 2016-cı il

Status:
İdarə heyəti tərəfindən təsdiqlənib

TPD açıqlanıb:
20 iyun 2016-cı il

## Layihənin Təsviri

AYİB Holcim ASC şirkətinin işgüzar fəaliyyətində öz iştirakını genişləndirmək məqsədilə Bankın həmin şirkətin kapitalındakı payını artırmaq üçün şirkətə əlavə sərmayə qoymaq imkanını nəzərdən keçirməkdədir.

## Layihənin Məqsədləri

Şirkətin yanacaq çeşidlərinə alternativ yanacaqların əlavə edilməsi yolu ilə enerjiyə qənaəti təkmilləşdirmək məqsədilə şirkəti dəstəkləməyə davam etmək.

### Keçid dövrünün təsiri

Bank ölkənin qeyri-neft sektoruna davamlı dəstək verməklə Azərbaycanın böyük şirkətlərindən birini dəstəkləməyə davam edəcək. Bundan əlavə, şirkət davamlılıq

standartlarını həyata keçirmək əzmindədir və öz əməliyyatlarında alternativ yanacaqlardan istifadə etməyə çalışacaq.

## Müştəri haqqında məlumat

HOLCIM (AZƏRBAYCAN) ASC

Holcim (Azərbaycan) ASC şirkəti Azərbaycanda ən böyük sement və klinker kərpici istehsalçılarından biridir.

LafargeHolcim şirkəti inşaat materialları sahəsində dünyanın ən qabaqcıl şirkətlər qrupu olaraq, 1999-cu ildə keçirilən özəlləşdirmə prosesi əsnasında keçmiş Qaradağ ASC, hazırkı Holcim (Azərbaycan) şirkətinin səhmdar kapitalında idarəetmə hüququ verən səhm paketini satın aldı. Bu gün LafargeHolcim şirkəti Holcim (Azərbaycan) şirkətinin səhmdar kapitalının 80%-indən çox hissəsinə malikdir və idarəetmə, texnika və kommersiya vəsaitləri təmin edir.

## AYİB-nin Maliyyə İcmalı

Şirkətin səhmlərinin 20%-inə qədər hissəsi.

## Ümumi Layihə Dəyəri

Şirkətin səhmlərinin 20%-inə qədər hissəsinin dəyəri.

## Ətraf mühit və Sosial sahə üzrə İcmal

B kateqoriyası. Mövcud sement zavodunun yenidən qurulması və əlavə maliyyələşdirməsi ilə əlaqədar olan ekoloji və sosial məsələlər Ekoloji və Sosial vəziyyətin ekspertizasının (ESVE) nəticələri əsasında asanlıqla qiymətləndirilə və yüngülləşdirilə bilər. Bank 2009-cu ildə ilkin zavodun satın alınmasını və sonrakı modernizasiyasını maliyyələşdirib və Şirkətlə uzun müddətli münasibətlərə malikdir.

İlkin maliyyələşdirmənin təfsilatları və Ekoloji Təsirin Qiymətləndirməsinin (ETQ) nəticələrinin açıqlanması.

Hazırkı maliyyələşdirmə Şirkətin əməliyyatlarını optimallaşdırmaqda ona dəstək verilməsinə yönəldilib və əməliyyatlarda heç bir əhəmiyyətli dəyişikliyin edilməsi nəzərdə tutulmayıb. Bu, hazırkı ESVE-nın bir hissəsi kimi təsdiqlənəcək və mövcud Ekoloji və sosial fəaliyyət planı (ESFP) ESVE-nın tapıntıları əsasında, tələb olunduğu kimi nəzərdən keçiriləcək və yenilənəcək.

ESVE-nın nəticələri əsasında Texnoloji Prosesin Dayandırılması (TPD) qaydası yenilənəcək.

# Texniki Əməkdaşlıq

Yoxdur.

# Şirkətin əlaqə vasitələri

Rossen Papazov
rossen.papazov@lafargeholcim.com
00994124418888
00994124461881
www.lafargeholcim.com
Sahil qəsəbəsi, Salyan şosesi, Bakı, Azərbaycan, AZ-1083

# Biznes imkanları

İşgüzar fəaliyyət imkanları və ya tədarük məsələləri ilə əlaqədar olaraq sifarişçi şirkətlə əlaqə saxlayın.

Dövlət sektorunda həyata keçirilən layihələrlə tanış olmaq üçün AYİB-nın Tədarük şöbəsi ilə əlaqə saxlayın: Tel.: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

# Ümumi rekvizitlər

AYİB-nın layihə haqqında tədarükə aid olmayan sorğuları:
Tel.: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

# İctimai İnformasiya Siyasəti (İİS)

İİS-də AYİB-nin öz strategiyaları, siyasətləri və əməliyyatlarının daha yaxşı bilinməsi və başa düşülməsini təşviq etmək üçün öz səhmdarlarına məlumat açıqlaması və onlarla məsləhətləşməsi qaydası təsbit olunur.

İİS-nin mətni

# Layihə üzrə Şikayət Mexanizmi (LŞM)

AYİB bir və ya daha çox şəxsin və ya təşkilatın Bank tərəfindən maliyyələşdirilən və ətrafa zərər verdiyi iddia olunan və ya həqiqətən ətrafa zərər verən layihələr haqqında şirkətlərinin müstəqil mütəxəssislər tərəfindən araşdırılmasına imkan yaratmaq məqsədilə Layihə haqqında şikayətlərin araşdırılması mexanizmini (LŞAM) təyin edib.

Layihə üzrə Şikayət Mexanizmi

LŞAM-nə əsasən, hər hansı şikayət LŞAM-nin icrası qaydalarında təsbit olunan vaxt cədvəllərinə uyğun olaraq təqdim olunmalıdır. Əgər siz öz şikayətinizin qanuniliyinə əmin deyilsinizsə, onda siz kömək almaq məqsədilə LŞAM mütəxəssisi ilə əlaqə saxlaya bilərsiniz (pcm@ebrd.com ünvanlı e-poçtla).